*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2008-ci il 30 dekabr tarixli 31/141-5 saylı Qərarı ilə təsdiq edilmiş, 2016-cı il 26 iyul tarixli 10/40 saylı Qərarı ilə dəyişiklik edilmişdir.*

Razılaşdırılmışdır:

| | |
|---|---|
| Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatasının Direktorlar Şurasının sədri | Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri |
| ______________________R.C.ASLANLI | ________________ M.M.PƏNAHOV |

**Referendum üzrə təşviqat qruplarının xüsusi hesablarının açılması qaydaları haqqında**

**T Ə L İ M A T**

Bu Təlimat Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 91-ci maddəsinə əsasən hazırlanıb və “Banklar haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq referendum üzrə təşəbbüs (təşviqat) qruplarının (bundan sonra – təşəbbüs qrupları) xüsusi hesablarının açılması qaydalarını müəyyən edir.

1. Seçki Məcəlləsinin 91-ci və 129-cu maddələrinə uyğun olaraq təşəbbüs qruplarının səlahiyyətli nümayəndələri lazımi sənədləri müvafiq seçki komissiyasına təqdim etdikdən sonra azı 5 gün müddətində, lakin referendum üzrə təşviqat qrupunun qeydə alınması üçün zəruri olan seçici imzalarının toplanmasına azı 24 saat qalmışadək referendum üzrə maliyyə fondlarını formalaşdırmaq üçün xüsusi hesab açmalıdırlar.

2. Xüsusi hesabın açılması üçün referendum üzrə təşəbbüs qrupunun maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsi aşağıdakı sənədləri müvafiq banka təqdim etməlidir:

- xüsusi hesabın açılması üçün ərizə;
- xüsusi hesabın açılması üçün müraciət edən səlahiyyətli nümayəndənin şəxsiyyətini təsdiq edən sənəd;
- Seçki Məcəlləsinin 63-cü maddəsinə uyğun olaraq tərtib edilmiş və müvafiq seçki komissiyasına təqdim olunmuş bildirişin alınması barədə həmin seçki komissiyası tərəfindən verilmiş yazılı məlumatın surəti;
- referendum üzrə təşəbbüs qrupunun xüsusi hesabı üzrə əməliyyat aparacaq maliyyə məsələləri üzrə səlahiyyətli nümayəndəsinin notariat qaydasında təsdiq edilmiş imza nümunəsi vərəqəsi.

3. Yuxarıda göstərilən sənədlər təqdim edildikdə müvafiq bank referendum üzrə təşəbbüs qrupuna dərhal, lakin 3 gündən artıq olmayan müddətdə

xüsusi hesab açmalıdır.

4. Referendum üzrə təşəbbüs qruplarının xüsusi hesablarına bütün pul vəsaiti manatla köçürülür.

5. Referendum üzrə təşəbbüs qrupu yalnız bir xüsusi hesab aça bilər.

6. Referendum üzrə təşəbbüs (təşviqat) qruplarının xüsusi hesabları yalnız "Azərbaycan Beynəlxalq Bankı" ASC-də və ya onun filiallarında açılmalıdır. Bu filialların mövcud olmadığı seçki dairələrinin ərazisində hesablar "Kapital Bank" ASC-nin filiallarında açılmalıdır.

***Qeyd:*** *bu Təlimata uyğun olaraq referendum üzrə təşəbbüs qruplarına açılmış xüsusi hesablar referendum üzrə təşviqat qrupları qeydə alındıqdan sonra həmin qruplara aid edilir.*